# MİNGƏÇEVİR BƏLƏDİYYƏSİNİN 2012-Cİ İLDƏKİ FƏALİYYƏTİ BARƏDƏ HESABAT

Mingəçevir Bələdiyyəsi də öz işində Azərbaycan Respublikası Prezidentinin bələdiyyələrlə bağlı verdiyi fərman və sərəncamlardan, Milli Məclisin yerli özünüidarə ilə əlaqədar qəbul etdiyi qərar və qanunlardan, bələdiyyənin öz Nizamnaməsindən irəli gələn vəzifələri, həmçinin bələdiyyə iclasları tərəfindən qəbul edilmiş qərarları əsas götürərək fəaliyyətini qurur. «Bələdiyyələrin statusu haqqında» Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq, Mingəçevir Bələdiyyəsi ən azı ildə iki dəfə ictimaiyyət qarşısında fəaliyyəti barədə hesabat verir. Bu günkü hesabatımız 2012-ci ildə bələdiyyənin gördüyü işlər haqqındadır.

2012-ci ildə Mingəçevir Bələdiyyəsinin 13 iclası keçirilib, 60 məsələ müzakirə edilib və müvafiq qərarlar qəbul olunub. Müzakirə olunan məsələlərin 33-ü vətəndaşlara torpaq sahələrinin verilməsi ilə, 6-i şəhərdə aparılan tikinti-abadlıq işlərinə, məhəllələrdə görülən işlərlə və başqa tədbirlərin keçirilməsinə maliyyə vəsaitlərinin ayrılması ilə, 21-i maddi yardım və təşkilatı məsələlərlə bağlı olub.

Hesabat dövründə bələdiyyəyə 457 ərizə və məktub daxil olub ki, bunların 81-i fərdi mənzil tikintisi üçün torpaq sahəsi almaqla, 44-ü sahibkarlıq fəaliyyəti üçün torpaq sahəsi almaq və ya icarəyə götürməklə, 63-ü maddi yardım almaqla, 31-i məhəllələrdə tikinti və təmir işləri ilə, 231-i müxtəlif şikayət və məlumatlarla bağlı müraciətlər olmuşdur. «Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında» Azərbaycan Respublikası Qanununa müvafiq olaraq, daxil olan ərizə və məktublara vaxtında baxılıb, nəticəsi barədə vətəndaşlara yazılı məlumatlar verilib. İmkan daxilində müraciətlər müsbət həllini tapıb, icrası mümkün olmayan işlər barədə ərizəçilərə yazılı şəkildə əsaslandırılmış cavablar göndərilib. İl ərzində 58 vətəndaş rəsmi müraciətlə sədrin qəbulunda olub. Onlardan 37 nəfəri torpaq sahəsi almaqla, 8 nəfəri maddi yardımla, 4 nəfəri xeyir-şər mağarının təmiri ilə, 9 nəfəri digər məsələlərlə bağlı müraciət edib.

Bələdiyyə tərəfindən 2012-ci ilin noyabr ayının 5-dən 11-dək keçirilmiş «Yerli Demokratiya Həftəsi» çərçivəsində vətəndaşlarla 15 görüş keçirilib, görüşlərdə 780 nəfər iştirak edib. Həmin həftədə bələdiyyə üzvləri tərəfindən 82 nəfər vətəndaş qəbul edilib, müraciətlər dinlənilib.

2012-ci ildə bələdiyyənin gəlirləri 354263,00 manat olub. Həmin vəsait əsasən dövlət büdcəsindən ayrılan dotasiyadan (190000,00 manat), bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin satışından (41646,50 manat), icarədə olan torpaq sahələrindən toplanan icarə haqqından (68961,010 manat), yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisindən (29435,00 manat), fiziki şəxslərdən torpaq vergisindən (4158,00 manat), bələdiyyənin digər fəaliyyətlərindən daxil olan gəlirlərdən (16518,00 manat) və s.-dən əldə olunan gəlirlərdir.

Hesabat dövründə bələdiyyə büdcəsindən 354311,42 manat vəsait xərclənib. Əmək haqqı və onunla bağlı sair ödəmələrə 132021,57 manat, Dövlət Sosial Müdafiə Fonduna 43276,64 manat, park və bağlarda abadlaşdırma xidmətləri üçün mal və materialların alınmasına 89605,34 manat, inzibati xərclərə (dəftərxana ləvazimatları və təsərrüfat mallarının alınmasına, nəqliyyat vasitələrinin saxlanılmasına) 11933,67 manat, kommunal, elektrik enerjisi, rabitə, su-kanalizasiya xidmətlərinə 2768,37 manat, ezamiyyə xərclərinə 2458,00 manat, sosial-mədəni və məişət təyinatlı obyektlərin təmirinə 3781,00 manat, bağ massivində ara yolların cari təmirinə 6400,00 manat, maddi yardıma 4380,20 manat, dəfn və mərasim xidmətlərinin təşkilinə 1630,00 manat, bankın xidmət haqqına 3943,84 manat, mətbuata abunə xərclərinə 4253,80 manat və sair cari xərclərə 44970,13 manat vəsait ayrılıb.

Bələdiyyənin il ərzində gördüyü işlərin xülasəsinə nəzər salaq. Bildiyiniz kimi, Sahil parkında şəhər İcra Hakimiyyəti yenidənqurma və abadlıq işləri aparır. İşlər demək olar ki, tamamlanmaq üzrədir. Mingəçevir Bələdiyyəsi də parkda aparılan abadlıq işlərinə qoşularaq, tikinti işləri üçün mal-materialların alınmasına bələdiyyə büdcəsindən 83371,00 manat vəsait ayırıb.

Ötən il bağ sahiblərinin müraciətləri əsasında «Şəfəq», «Lalə», «Bozdağ» massivlərinin bir neçə ara yollarına 6400,00 manat dəyərində çınqıl döşənib. Bundan başqa, «Bələdiyyə», «İlk Qurucular», «S.Vurğun» parklarında cari təmir işlərinə, fəvvarələrin mövsümə hazırlanmasına, «Rus qəbirstanlığı»nda təmizlik işlərinin aparılmasına, bələdiyyənin inzibati binasının dam örtüyündə təmir işlərinə, Kür çayının sahil hissəsinin cildən təmizlənməsinə 3776,89 manat vəsait sərf olunub.

Bələdiyyə büdcəsindən hesabat dövründə qəbirstanlıqların saxlanılmasına 7051,00 manat, təhsil sahəsinə 6435,00 manat, məişət xidmətlərinə 1693,00 manat ayrılıb.

2012-ci ildə məhəllə komitələrinin və sakinlərin müraciətləri əsasında məhəllələrdə bir sıra işlər görülüb. Yeddi binanın qarşısındakı (N.Nərimanov pr. 9/31, N.Nərimanov pr. 27, H.Əliyev pr. 72a, N.Rəfibəyli küçəsi 4a, N.Nərimanov pr. 44, H.Əliyev pr. 90, H.Aslanov küçəsi 2) xeyir-şər mağarlarının təmiri üçün məhəllə komitələrinə 3505,00 manat dəyərində tikinti materialları alınıb verilib. Sahil parkından çıxarılaraq təmir edilmiş 65 ədəd oturacaq 26 ünvana paylanıb. Oturacaqların təmiri üçün büdcədən 350,00 manat vəsait xərclənib.

Fərdi mənzil tikintisi üçün sakinlərə paylanacaq yeni yaşayış massivində yolun çəkilişinə 2335,00 manat vəsait sərf edilib.

Əhalinin sosial xidmətə ehtiyacı olanların bir hissəsinə maddi yardımların verilməsi bələdiyyənin fəaliyyətinin əsas istiqamətlərindəndir. Hesabat dövründə maddi yardım almaqla bağlı müracit etmiş 63 vətəndaşdan 40 nəfərinə 3805,00 manat həcmində pul yardımları edilib. 7 nəfər imkansız ailəyə evinin təmiri üçün 656,20 manat dəyərində müxtəlif tikinti materialları ilə yardım göstərilib.

Bələdiyyənin «Dəfn mərasimi xidmətləri» sahəsi tərəfindən il ərzində 287 dəfn təşkil edilib. 21 nəfər kimsəsiz şəxs bələdiyyə hesabına dəfn olunub. Bunun üçün bələdiyyə büdcəsindən 1630,00 manat vəsait xərclənib. 51 nəfər imkansız ailə qohumlarının dəfni üçün ödəniləcək xidmət haqqından azad edilib. Həmin vəsait (2040,00 manat) bələdiyyənin büdcəsindən silinib.

Hesabat dövründə bələdiyyə bir sıra tədbirlərin keçirilməsinə də maliyyə vəsaiti ayırıb. Şəhərin 64 illiyi, Qurban bayramı, «Beynəlxalq Qadınlar Günü», Silahlı Qüvvələr Günü, «Yerli Demokratiya Həftəsi» ilə bağlı tədbirlərə, stend və portretlərin hazırlanmasına 7330,00 manat vəsait xərclənib.

2012-ci ildə vətəndaşların müraciətləri əsasında bələdiyyə iclasının qərarı ilə və hərrac yolu ilə fərdi mənzil tikintisi və sahibkarlıq fəaliyyəti üçün torpaq sahələri ayrılıb. Fərdi mənzil tikintisi üçün 14400 kv.metr, sahibkarlıq fəaliyyəti üçün 9800 kv.metr torpaq sahəsi vətəndaşların mülkiyyətinə verilib. Hərracla 388 kv.metr torpaq sahəsi icarəyə verilib. 2200 kv.metr torpaq sahəsinin fərdi mənzil tikintisi üçün, 18970 kv.metr torpaq sahəsinin sahibkarlıq fəaliyyəti üçün mülkiyyətə verilməsi, 290 kv.metr torpaq sahəsinin sahibkarlıq fəaliyyəti üçün icarəyə verilməsi nəzərdə tutulub, ilkin prosedurdan keçirilib. Fərdi mənzil tikintisi üçün 6 nəfər hərbiçiyə 2400 kv.metr, 5 nəfər Qarabağ Müharibəsi Əlilinə 1900 kv.metr, 8 nəfər şəhid ailəsinə 3200 kv.metr, 1 nəfər Qarabağ Müharibəsi Veteranına 400 kv.metr torpaq sahəsi ayrılıb.

9 aprel 2012-ci il tarixdə Mingəçevir şəhərində Azərbaycan Şəhər Bələdiyyələrinin Milli Assosiasiyasının hesabat-seçki yığıncağı uğurla keçirilib. Yığıncaqda Mingəçevir Bələdiyyəsinin fəaliyyəti yüksək qiymətləndirilib. Bələdiyyənin sədri fəxri fərmanla təltif olunub. Bələdiyyə üzvü, «Yerli sosial məsələləri» daimi komissiyasının sədri Zahid Qasımlı fəaliyyətinə görə Bələdiyyə işçiləri Həmkarlar İttifaqı tərəfindən «Bələdiyyə bayrağı» döş nişanı ilə mükafatlandırılıb. Eyni zamanda, Avrasiya Əməkdaşlıq Fondu da layihələr müvəffəqiyyətlə yerinə yetirildiyinə görə bələdiyyəyə komputer dəsti bağışlayıb.

Noyabr ayının 5-dən 11-dək «Azərbaycanda Yerli Demokratiya Həftəsi» çərçivəsində müxtəlif səpkili tədbirlər keçirilib: «açıq qapı günləri», seçicilərlə görüşlər, bələdiyyə üzvlərinin «qaynar xətt» vasitəsilə vətəndaşlarla əlaqələr qurması, «dəyirmi masalar», büdcənin ictimai müzakirəsi və s. «Həftə» ərzində bir gün şagird parlamentinin üzvləri bələdiyyə qurumunu idarə ediblər. Mətbuat və elektron KİV-lərdə bələdiyyənin fəaliyyəti ilə bağlı məqalələr dərc edilib, çıxışlar hazırlanıb.

Sözsüz ki, bələdiyyənin 2012-ci il üçün planlaşdırılan işlərin hamısını həyata keçirmək mümkün olmayıb. Bələdiyyə büdcəsini formalaşdıran ən iri mənbə olan əmlak və mədən vergilərinin toplanmasında problemlər vardır. Dayanacaqlardan və mehmanxalardan yığılan rüsumlar, reklamdan daxil olan ödəniş nəzərdə tutulduğundan az olub. Bu səbəbdən də nəzərdə tutulmuş bir sıra layihələrin reallaşdırılmasında çətinliklər yarandı.

Mingəçevir Bələdiyyəsi bundan sonra da fəaliyyətini gücləndirmək məqsədi ilə qarşıya çıxan problem və noqsanları aradan qaldırmaq üçün potensialını səfərbər edəcək, yerli əhəmiyyətli məsələlərin həllində sakinlərin yardımçısı olacaqdır.